AZERBAIJAN INTERNATIONAL

**Elm - Yenilik Yaradıcısı**
**Baş Məqalə - Betti Bleyer**

Mənbə: Azerbaijan İnternational jurnalı - Aİ 4.2 (Yay 1996)
© 2002. Azerbaijan İnternational

"Bir çoxları Azərbaycanın elm sahəsində nə qədər güclü olduğundan xəbərsizdir," deyə respublikanın aparıcı alimlərindən biri olan Azad Mirzəjanzadə bildirir. "Qərblilər Azərbaycan haqqında fikirləşəndə onun çoxlu təcrübəli alimləri olan bir ölkə olduğu ağıllarına belə gəlmır. Biz kasıb və məhdud imkanlar çərçivəsində yaşamış ola bilərik. Amma bizim düşünmə qabiliyyətimiz əlimizdən alınmamışdır. Həqiqəti desək, elm burada Qərbdə olduğundan daha yüksək səviyyədə inkişaf etmişdir, çünki biz daha sadə avadanlıqla işləmişik və məhdudiyyətlərə baxmayaraq, nəticəyə necə nail ola biləcəyimiz barədə fikirləşməli olmuşuq. Avadanlıq nə qədər sadə olsa bir o qədər çox fikirləşməli olursan. Buna görə də biz beynimizi "işlətmişik". Amerika Birləşmiş Ştatlarında (ABŞ-da) üzərində indi işləməyə başladıqları bəzi proyektlər üzərində biz on il bundan qabaq işləmişik."

**Zəkanın Tükənməsi**
Təəsüf ki, bu gün azərbaycanlılar əldə olunmasına uzun illər sərf olunan elmi nailiyyət və bilik bazasından getdikcə daha az istifadə etməyə başlamışlar. Sovet İttifaqının dağılması ilə meydana çıxan iqtisadi tənəzzül çox güman ki, ən böyük zərbəni ziyalılara vurmuşdur. Alimlər, professorlar və tədqiqatçılar gündəlik yaşayışlarını təmin etmək üçün başqa yollar axtarmağa məcbur olmuşlar. Bakı Dövlət Universitetinin rektoru Murtuz Ələsgərovun dediyinə görə 80 professor artıq universiteti tərk etmişdir. Xoşbəxtlikdən onların bir çoxu işləmək üçün qonşu ölkələrə getməli olsalar da, heç olmasa öz sahələrində işləməkdə davam etməyə çalışırlar. Bu tənəzzüldən ən çox faydalanan ölkə Türkiyədir. Belə ki, mədəniyyətlər və dillər oxşar olduğundan alimlərin orada işi bir qədər yüngülləşir. Digər qrup ziyalılar isə ümumiyyətlə elmi atmışlar. Universitet müəllimləri, misal üçün, ayda 20 dollar əmək haqqı alır. Küçə satıcısı isə çox güman ki, bir gündə siqaret satmaqla daha çox gəlir əldə edə bilər. Hətta professorlar arasında özlərinə qəsd etmə hallarına da rast gəlinmişdir. Onlar belə vəziyyətə düşüb "vicdanını ləkələməkdənsə" özlərinə qəsd edib canlarını qurtarmağı üstün hesab etmişlər.

**Nəzəriyyəyə ilə Tətbiq Arasında Təzad**
Azərbaycanın ABŞ-dakı səfiri, ixtisasca fizik olan doktor Hafiz Paşayevin sözlərinə əsasən Sovet dövründə Azərbaycanda elm Qərbdəkinə nisbətən fərqli xətt üzrə inkişaf edib. "Fikrimizi əsasən nəzəri tədqiqatlar üzərində cəmləşdirirdik, başqa sözlə desək, hətta

mühəndislik kimi təcrübi sahədə belə "yalnız elm naminə elm" prinsipi əsasında çalışırdıq. Bu bizim dəhşətli bir səhvimiz idi. Alimlərimiz bir şey ixtira etdikdə onun sənayedə gec ya tez tətbiq olunduğunun fərqinə varmırdıq. Bizim sistemdə tətbiqi sahəni inkişaf etdirmək üçün heç bir mexanizm yox idi. Nəzəriyyəmiz tətbiq olunduqda belə eyni məvacib alırdıq."

O haqlıdır. Və nəticədə yaponlar, almanlar və amerikalılar çox hallarda çoxdan bəri Sovet və Azərbaycan alimləri tərəfindən işlənmiş nəzəriyyələrin tətbiqi üçün yollar axtarıb taparaq bundan bəhrələnmişlər.

**Elm və Neft**

Neftdən qədim zamanlardan yanacaq və tibbi məqsədlər üçün istifadə olunmasına baxmayaraq, 19-cu əsrin ikinci yarısından başlayan elmi tədqiqat əsas etibarilə neft emalı və istehsalı ilə əlaqədar inkişaf edirdi. Son 100 il ərzində elm daha çox sahələrdə - geologiya, geofizika, geokimya, fizika, elektronika, nizamlayıcı sistemlər, riyaziyyat və digər sahələrdə genişlənməyə və inkişaf etməyə başlayıb. Bu gün neft Azərbaycanda tədqiqat katalizatoru rolunu oynamaqda davam edir. Bu il, Neft Akademiyası 75 illik yubileyini qeyd edir. Burda əlavə bir neçə şöbə açılmaqla artıq 8 şöbə mövcuddur: 1) geoloji tədqiqat; 2) qaz və neft sənayesi; 3) kimya texnologiyası; 4) neft mexanikası; 5) energetika; 6) istehsal proseslərinin avtomatlaşdırılması; 7) neft və qaz enerjisi kompleksinin iqtisadiyyatı; 8) idarəetmə və bazarlamanı özündə birləşdirən beynəlxalq iqtisadi əlaqələr. Burada 66 kafedra və 1150 işçi heyəti vardır. Bu illər ərzində Neft Akademiyası Sovet İttifaqının digər ölkələrindən və xarici dövlətlərdən də çoxlu tələbələr daxil olmaqla 75000 məzun yetişdirmişdir. Hazırda burada 15,000 tələbə təhsil alır ki, bunlardan 40%-ini qadınlar təşkil edir.

Qərblilər Azərbaycanda ziyalı ehtiyatlarının mövcud olmasına çox təəcüblənmişlər. Bəzi neft icraçıları "istehsalatın sirlərini" bilən ziyalılar da daxil olmaqla hər bir şeyi özləri ilə Xəzər dənizinə gətirməli olacaqlarını güman edirdilər. Ancaq sonra onlara bunun düzgün olmadığı məlum oldu. 80,000 işçisi olan ARDNŞ (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) dünyada ən böyük neft şirkətlərindən biridir. Geniş sayda ziyalı ehtiyatları vardır ki, onları sadəcə olaraq "kəşf etmək" lazımdır. Xüsusilə də şirkətlər gənc kadrlar arasında onların heç vaxt işlətmədiyi avadanlıqlar üzərində təlim keçsələr, onların sayı çoxalar. ABNŞ (Azərbaycan Beynəlxalq Neft Şirkəti) daxil olmaqla bir sıra şirkətlər bu geniş ziyalı ehtiyatlarından aktiv surətdə istifadə edərək işə qəbul edirlər. Bu düzgün yoldur və parlaq gələcəyi olan güclü bir dövlətin yaranmasına kömək edəcəkdir.

Azərbaycanın Qafqazda yerləşməsi də onun elmdə və təhsildə irəliləyiş etməsində digər bir əhəmiyyətli amil olmuşdur. Əsrlər, bəlkə də minilliklər boyunca bu ərazi Şərqlə Qərb, Cənubla Şimal arasında dəhliz rolunu oynamışdır. Qafqaz Çini Avropa, Rusiyanı İran və Ərəb dünyası ilə əlaqələndirmişdir. Və bütün bu qarşılıqlı fəaliyyət - gediş-gəliş nəticəsində Azərbaycanda və ona qonşu ərazilərdə yaşayan insanlar bu günün mütəfəkkirləri barədə informasiya toplamağa nail olmuşlar.

**İngilis Dili - Elmi Dil**
Ötən 70 il ərzində azərbaycanlılar üçün elm dili ingilis dili olmuşdur. Alimlər məşğul olduqları elm sahələrində baş verən nailiyyətlər haqda məlumatı rus dilində çap olunan jurnallardan alırdılar. Eyni zamanda onların işləri də Sovet İttifaqında və daha uzaqlarda rus dili vasitəsilə yayılaraq geniş auditoriyaya təqdim edilirdi.

Bu gün elmi dilin dəyişilməsi özünü aydın göstərir, belə ki, ingilis dili azərbaycanlılar üçün artıq elm dilinə çevrilir. Rus dilində çap olunan həmin jurnallar artıq yoxdur, çünki respublikanın onları almağa pulu yoxdur. Bakıda yaranan xarici neft şirkətlərinin mövcudluğu və müxtəlif elm sahələrində təlim üçün xaricə getmə imkanları onların marağını cəlb edir. Azərbaycanda internetin yaxın bir il ərzində yaranacağına ümid edərək deyə bilərik ki, elmdə ingilis dili vasitəsilə yeni bir çevriliş baş verəcəkdir.

**Respublikadan Kənarda**
Respublikadan və İrandan kənarda yaşayan azərbaycanlıların işləri də nəzərdən qaçmamalıdır. Bir çox azərbaycanlılar, xüsusilə də İrandan köçüb gedənlər bütün dünyada elmə böyük töhfələr verməkdədir. Onların çoxu öz ixtiraları və nəzəriyyələri ilə dünya texnologiyasında yenilik etmişlər.

Bu nömrədə müasir texnologiyanın daha da modernləşdirilməsində hələ də katalizator rolu oynayan 1960-ci ildə qaz lazerini kəşf etmiş və hazırda MIT-da (Massaçusets Texniki İnstitutu; qısaltma ingilis dilindədir) çalışan Əli Cavan haqqında məqalə dərc etmişik. Ancaq Cavan bununla kifayətlənmir, o elektronları radio tezliyindən yüngül dalğa tezliyinə keçirməklə informasiyanın ötürülməsini gücləndirəcək növbəti bir ixtira üzərində çalışır. 1994-cü il payız nömrəmizdə (Aİ 2.4) Bakıda doğulmuş və 1965-ci ildə gündəlik həyatımızda işlətdiyimiz elektronika sahəsində edi1ən bir çox ixtiralara təkan verən "Üstüörtülü məntiq" nəzəriyyəsini kəşf etmiş Lotfi Zadə haqqında söhbət açmışdıq. Əgər həmin məqalə nəzərinizdən qaçıbsa, onu Azərbaycan İnternəşnl jurnalının veb səhifəsində oxuya bilərsiniz: (AZER.com).

**Dəryadan Bir Damla**
Əvvəllər üzərində işlədiyimiz bir neçə mövzu - incəsənət, tibb və ədəbiyyat mövzusunda olduğu kimi bu mövzunun da çox az hissəsini əhatə edə bilmişik. Növbəti səhifələrdə müzakirə etdiyimiz məsələlər həqiqətdə mövcud olanla müqayisədə "dəryadan bir damladır". Buna görə üzr istəyirik, amma ümid edirik ki, bir çox oxucuları maraqlandıra biləcəyik ki, sonra onlar özləri maraqlandıqları sahədə məlumat tapsınlar.

---

Tərcümə: Ülviyyə Məmmədova
Yoxladı: Gülnar Aydəmirova
Redaktə etdi və veb üçün hazırladı: Aynurə Hüseynova